Azərbaycan Respublikası Energetika Nazirliyinin
Apellyasiya Şurası

Q Ə R A R № 3

Bakı şəhəri **21 yanvar 2022-ci il**

Azərbaycan Respublikası Energetika Nazirliyinin Apellyasiya Şurası (bundan sonra - Şura) namizəd Mustafayeva Günel Böyükxan qızının dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticəsindən narazılığı barədə 20.12.2021 tarixli EN-02-M-4829/82/21 nömrəli şikayətinə baxaraq aşağıdakıları

M Ü Ə Y Y Ə N E T D İ :

Namizəd Mustafayeva Günel Böyükxan qızı 2021-ci il 13 sentyabr tarixində elan edilmiş müsabiqə üzrə müsahibə çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Hüquq, insan resursları və kargüzarlıq şöbəsinin məsləhətçisi vəzifəsi üzrə 2021-ci il 15 dekabr tarixində keçirilmiş müsahibədə iştirak etmiş və 14.7 bal toplayaraq iddia etdiyi vəzifəyə uyğun hesab edilməmişdir.

G.Mustafayeva Müsahibə Komissiyasının qərarından narazı qaldığını bildirərək, müsahibənin nəticəsinə yenidən baxılmasını xahiş etmişdir.

Beləliklə, vətəndaşın şikayəti Şuranın icraatına qəbul edilərək 21 yanvar 2022-ci il tarixli iclasın gündəliyinə daxil edilmişdir. Şuranın iclasında aparılan müzakirələrdə, eyni zamanda müsahibənin video çəkilişinə baxılan zaman müəyyən edilmişdir ki, G.Mustafayeva ilə aparılmış müsahibə zamanı qanunvericiliyin tələbləri, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın tələbləri pozulmamış, eyni zamanda obyektivliyə əməl olunmaqla qərəzliliyə yol verilməmişdir. Bununla da, işin faktiki halları və qanunvericiliyin müvafiq müddəaları nəzərə alınmaqla şikayətin təmin edilməməsi qərara alınmışdır.

Yuxarıda göstərilənləri nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.1-ci yarımbəndini rəhbər tutaraq, Energetika Nazirliyinin Apellyasiya Şurası

QƏRARA ALIR:

1. Mustafayeva Günel Böyükxan qızının dövlət qulluğuna qəbulla bağlı keçirilmiş müsahibənin nəticəsindən narazılığı barədə şikayəti təmin edilməsin.
2. Müsahibə Komissiyasının Mustafayeva Günel Böyükxan qızı barəsində qəbul etdiyi qərar qüvvədə saxlanılsın.
3. Qərarın surəti məlumat üçün Mustafayeva Günel Böyükxan qızına göndərilsin.
4. Qərardan onun təqdim olunduğu vaxtdan 30 gün müddətində məhkəməyə şikayət verilə bilər.

Azərbaycan Respublikası
Energetika Nazirliyinin
Apellyasiya Şurasının sədri **Samir Vəliyev**